## 2024-cü il üzrə istifadəçilərin statistik məlumatlarla təmin olunması barədə onlayn sorğunun nəticələri ilə 2023-cü ildə aparılmış sorğunun nəticələrinin təhlili və müqayisəsi barədə

## A R A Y I Ş

Sorğu özündə istifadəçilərin fəaliyyət sahəsini, onların maraq dairəsini, hansı statistik məlumatlara inamının olmasını, statistik fəaliyyətin keyfiyyət baxımından qiymətləndirilməsini, Komitənin internet səhifəsinin istifadəsinin rahatlığını, statistik məlumatların aktual, dolğun olmasının qiymətləndirilməsini, istifadəçilərə xidmət səviyyəsinin keyfiyyətini, statistik məlumatların istifadəçilərinin Dövlətstatkomun yayım təqvimindən xəbərdar olmasını, Dövlətstatkomun fəaliyyətindən nə dərəcədə razı olduqlarını və s. əks etdirən suallardan ibarətdir.

15.12.2024-cü il tarixinə sorğuda iştirak edənlərin 57,2 faizini fiziki şəxslər, 34,9 faizi qeyri-dövlət müəssisələrini, 7,9 faizi dövlət idarəetmə orqanlarını təmsil etmişdir. 2023-cü ilin eyni dövrü ilə müqayisədə sorğuda iştirak edən fiziki şəxslərin sayı 0,2 faiz artmış, qeyri-dövlət müəssisələrinin və dövlət idarəetmə orqanlarının sayı 0,1 faiz azalmışdır. Maraq göstərilən sahələr içərisində ən çox əmək bazarı, qiymət, əhali və gender statistikası, sənaye, ticarət, milli hesablar, turizm, təhsil, elm və mədəniyyət, maliyyə və bank, energetika, kənd təsərrüfatı, tikinti statistikası sahələri üstünlük təşkil edir.

Rəyini bildirənlərin 41,8 faizi statistik məlumatlardan 5 ildən artıq, 50,1 faizi hər ay statistik məlumatlardan istifadə etdiyini bildirmişdir. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə statistik məlumatlardan 5 ildən artıq istifadə edənlərin sayı 0,2 faiz, hər ay statistik məlumatlardan istifadə edənlərin sayı 0,3 faiz artmışdır.

Dövlətstatkomun internet səhifəsi statistik məlumatların əldə edilməsinin əsas mənbəyi kimi olduğunu qeyd edən istifadəçilərin sayı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,2 faiz artaraq 71,7 faizə bərabər olmuşdur. Rəyini bildirənlərin əksəriyyəti internet səhifədən mütəmadi olaraq istifadə etdiyini bildirmişdir. Bundan sonra əsas vacib məlumat mənbəyi kimi Dövlətstatkomun nəşrləri, KİV məlumatları göstərilmişdir.

Sorğunun “Dövlətstatkoma və onun yaydığı statistik məlumatlara etibar edirsiniz?” sualına iştirakçıların 75,0 faizi “bəli”, 20,5 faizi “qismən” bildirmiş, 4,5 faizi isə münasibət bildirməmişdir. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə “bəli” deyənlərin sayı 0,1 faiz, “qismən” bildirənlərin sayı 0,2 faiz artmış, münasibət bildirməyənlərin sayı isə 0,3 faiz azalmışdır.

**Cədvəl 1**

Real vəziyyətə uyğunluğu baxımından Dövlətstatkom tərəfindən verilən aşağıdakı göstəricilər üzrə məlumatlara inam səviyyəsi (faizlə)

| | İnanıram | Qismən inanıram | İnanmıram | Bilmirəm |
|---|---|---|---|---|
| Əhalinin sayı | 93,1 | 6,9 | - | - |
| Əhalinin gəlirləri | 78,3 | 13,2 | 8,5 | - |
| Yoxsulluq səviyyəsi | 63,4 | 23,2 | 13,4 | - |
| İşsizlik səviyyəsi | 74,8 | 21,7 | 3,5 | - |
| Ümumi daxili məhsulun (ÜDM) artım tempi | 80,6 | 19,4 | - | - |
| Sənaye istehsalı | 81,8 | 18,1 | - | 0,1 |
| İnflyasiyanın tempi | 83,2 | 13,5 | 1,3 | 2,0 |
| Orta aylıq əməkhaqqı | 81,9 | 12,5 | 5,4 | 0,2 |

Cədvəldən göründüyü kimi, sorğu iştirakçıları daha çox əhalinin sayı ilə bağlı məlumatlara inanır. Belə ki, rəy bildirənlərin 93,1 faizi bu göstəriciyə inandığını bildirmişdir. İnflyasiya üzrə istifadəçilərin 83,2 faizi, əməkhaqqı və sənaye istehsalı ilə bağlı istifadəçilərin müvafiq olaraq 81,9 və 81,8 faizi, əhalinin gəlirləri ilə bağlı istifadəçilərin 78,3 faizi, ÜDM-nin artım sürəti ilə bağlı istifadəçilərin 80,6 faizi inandığını bildirmişdir. İnam baxımından ən aşağı nəticə yoxsulluq səviyyəsi ilə bağlı olmuşdur.

Cədvəlin təhlili nəticəsində məlum olmuşdur ki, 2023-cü ilin eyni dövrü ilə müqayisədə inanıram deyən istifadəçilərin sayı əhalinin sayı, əhalinin gəlirləri və üzrə ÜDM üzrə 0,1 faiz, yoxsulluq səviyyəsi üzrə 0,4 faiz, inflyasiya tempi və əməkhaqqı üzrə isə 0,2 faiz, sənaye istehsalı üzrə 0,3 faiz artmış, işsizlik səviyyəsi üzrə dəyişməmişdir. Qismən inanıram deyən istifadəçilərin sayı isə əhalinin sayı və əhalinin gəlirləri üzrə 0,1 faiz, sənaye istehsalı üzrə 0,2 faiz azalmış, yoxsulluq səviyyəsi və işsizlik səviyyəsi üzrə 0,2 faiz artmış, ÜDM, inflyasiya və əməkhaqqı üzrə dəyişməmişdir. Əhalinin sayı, ÜDM və sənaye istehsalı üzrə inanmıram deyən istifadəçilər olmamışdır. İnanmayanların sayı yoxsulluq səviyyəsi üzrə 0,6 faiz, işsizlik səviyyəsi üzrə 0,1 faiz azalmış, inflyasiya tempi, əməkhaqqı və əhalinin gəlirləri üzrə isə dəyişməz qalmışdır.

**Cədvəl 2**

Göstərilən müddəalara münasibət (faizlə)

| | Bəli | Qismən | Xeyr | Bilmirəm |
|---|---|---|---|---|
| Dövlətstatkom yaxşı (keyfiyyətli) statistik informasiya təqdim edir | 82,6 | 16,7 | 0,1 | 0,6 |
| Dövlətstatkomun statistik informasiyası daha vacib ictimai hadisələri əks etdirir | 79,2 | 20,2 | 0,6 | - |
| Dövlətstatkom qərəzsiz məlumatları təqdim edir | 83,7 | 14,8 | - | 1,5 |
| Dövlətstatkom öz informasiya materiallarını və xidmətlərini istifadəçilərə mütəmadi olaraq təqdim edir | 84,4 | 14,9 | 0,4 | 0,3 |

Cədvəldə əks olunmuş göstəricilər əvvəlki ilin eyni göstəriciləri ilə müqayisə olunaraq aşağıdakı nəticələr əldə olunmuşdur:

- “Dövlətstatkom yaxşı (keyfiyyətli) statistik informasiya təqdim edir” sualına cavab verən istifadəçilərin sayı “bəli” deyənlər üzrə əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,6 faiz artaraq ümumi istifadəçilərin sayının 82,6 faizinə, “qismən” deyənlər üzrə 0,3 faiz azalaraq 16,7 faizinə, “xeyr” deyənlər üzrə 0,1 faizinə və “bilmirəm” deyənlər üzrə 0,3 faiz azalaraq 0,6 faizinə bərabər olmuşdur;
- “Dövlətstatkomun statistik informasiyası daha vacib ictimai hadisələri əks etdirir” sualına cavab verən istifadəçilərin sayı “bəli” deyənlər üzrə əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,7 faiz artmış, “qismən” deyənlər üzrə 0,3 faiz, “xeyr” deyənlər üzrə isə 0,4 faiz azalmışdır;
- “Dövlətstatkom qərəzsiz məlumatları təqdim edir” sualına cavab verən istifadəçilərin sayı “bəli” deyənlər üzrə əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,7 faiz artmış, “qismən” deyənlər üzrə 0,2 faiz, “bilmirəm” deyənlər üzrə 0,5 faiz azalmışdır;
- “Dövlətstatkom öz informasiya materiallarını və xidmətlərini istifadəçilərə mütəmadi olaraq təqdim edir” sualına cavab verən istifadəçilərin sayı “bəli” deyənlər üzrə əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,3 faiz, “qismən” deyənlər üzrə 0,2 faiz artmış, “xeyr” deyənlər üzrə 0,3 faiz, “bilmirəm” deyənlər üzrə 1,2 faiz azalmışdır.

Sorğunun Dövlətstatkomun veb-səhifəsi ilə bağlı suallarına dair aşağıdakı nəticələr əldə edilmişdir:

**Cədvəl 3**

faizlə

| | Bəli | Xeyr | Bilmirəm |
|---|---|---|---|
| Veb-saytın dizaynı maraqlıdır | 98,3 | 1,5 | 0,2 |
| Veb-saytın istifadəsi asandır | 94,4 | 4,0 | 1,6 |
| Axtardığım məlumata tez daxil oluram | 91,5 | 7,3 | 1,2 |

Bu cədvəlin təhlili nəticəsində əvvəlki ilin eyni dövrü ilə müqayisədə "Veb-saytın dizaynı maraqlıdır" üzrə suala "bəli" cavab verənlərin sayı 0,3 faiz artaraq 98,3 faiz, "Veb-saytın istifadəsi asandır" sualı üzrə "bəli" cavab verənlərin sayı 0,4 faiz artaraq 94,4 faiz və "Axtardığım məlumata tez daxil oluram" sualı üzrə "bəli" cavab verənlərin sayı 0,3 faiz artaraq 91,5 faiz təşkil etmişdir. "Veb-saytın dizaynı maraqlıdır" sualı üzrə "xeyr" cavab verənlərin sayı 0,2 faiz azalaraq 1,5 faiz, "Veb-saytın istifadəsi asandır" sualı üzrə "xeyr" cavab verənlərin sayı 0,2 faiz azalaraq 4,0 faiz, "Axtardığım məlumata tez daxil oluram" sualı üzrə "xeyr" cavab verənlərin sayı isə 0,3 faiz azalaraq 7,3 faiz olmuşdur. "Bilmirəm" deyənlərin sayı isə "Veb-saytın istifadəsi asandır" sualı üzrə 0,1 faiz, "Veb-saytın istifadəsi asandır" sual üzrə 0,2 faiz azalmış, "Axtardığım məlumata tez daxil oluram" sualı üzrə dəyişməz qalmışdır.

"Dövlətstatkom statistik məlumatları vaxtlı-vaxtında yayır?" sualına rəy bildirənlər 90,6 faizi müsbət cavab vermişdir ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,2 faiz artmışdır.

Sorğuda iştirak edənlərin 90,5 faizi (əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,2 faiz çox) Dövlətstatkomun yaydığı statistik məlumatları aktual, dolğun olduğunu hesab etmiş, 9,5 faizi (əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,2 faiz az) isə qismən razılaşmışdır.

**Cədvəl 4**

İstifadəçilərə xidmət səviyyəsi ilə bağlı rəylər (faizlə)

| | Bəli | Xeyr | Rəyim yoxdur |
|---|---|---|---|
| Dövlətstatkomdan məlumatlarla bağlı izahları və ya şərhləri telefon və ya e-poçt vasitəsilə əldə edə bilirsiniz? | 92,7 | 2,5 | 4,8 |
| Dövlətstatkom statistik məlumatları asan başa düşülən formada təqdim edir? | 95,5 | 1,4 | 3,1 |

"Dövlətstatkomdan məlumatlarla bağlı izahları və ya şərhləri telefon və ya e-poçt vasitəsilə əldə edə bilirsiniz?" sualına "bəli" deyən istifadəçilərin sayı 0,7 faiz artmış, "xeyr" deyən istifadəçilərin sayı 0,5 faiz, "rəyim yoxdur" deyən istifadəçilərin sayı isə 0,2 faiz azalmışdır. "Dövlətstatkom statistik məlumatları asan başa düşülən formada təqdim edir?" sualına da "bəli" deyən istifadəçilərin sayı 0,7 faiz artmış, "xeyr" deyən istifadəçilərin sayı 0,5 faiz və "rəyim yoxdur" deyən istifadəçilərin sayı isə 0,2 faiz azalmışdır.

"Ümumilikdə Dövlətstatkomun fəaliyyəti ilə razı olduğunuzu necə qiymətləndirirsiniz?" sualına cavablar aşağıdakı kimidir:

faizlə

| Aşağı | Yaxşı | Yüksək | Rəyim yoxdur |
|---|---|---|---|
| 0,1 | 53,0 | 46,9 | - |

Cədvəldən göründüyü kimi “Ümumilikdə Dövlətstatkomun fəaliyyəti ilə razı olduğunuzu necə qiymətləndirirsiniz?” sualına cavab verən istifadəçilərin sayı əvvəlki ilin eyni dövrü ilə müqayisədə ümumi istifadəçilərin sayında “yaxşı” qeyd edənlərin sayı 0,1 faiz artaraq 53,0 faiz, “yüksək” qeyd edənlərin sayı 0,1 faiz artaraq 46,9 faiz, “rəyim yoxdur” qeyd edənlər isə olmamışdır.

Cavablardan görmək olar ki, öz rəyini bildirənlərin böyük əksəriyyəti Dövlətstatkomun fəaliyyətindən razı qaldıqlarını bildirmişlər. Sorğu nəticələrini yekunlaşdıraraq demək olar ki, 2023-cü ilin eyni dövrü ilə müqayisədə statistik məlumatların istifadəçilərinin statistik məlumatlara və onların keyfiyyətinə, statistika orqanının fəaliyyətinə münasibəti müsbətdir.

**İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsi**